

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 65 (21.475)

12 aprel 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də BMT-nin ölkəmizdə yeni təyin olunmuş rezident əlaqələndiricisi Qulam İsakzaini qəbul edib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai etimadnamə məktubunu Prezident İlham Əliyevə təqdim edib.

Prezident İlham Əliyev Azərbaycanın BMT-nin bir çox təsisatları ilə sıx əlaqələr qurduğunu, ölkəmizin təşkilat ilə çox fəal əməkdaşlıq həyata keçirdiyini deyib. Bakının BMT-nin bir neçə mühüm tədbirinə ev sahibliyi etdiyini bildirən dövlətimizin başçısı Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının təsisatlarında iştirakını uğurla davam etdirəcəyinə ümidvar olduğunu deyib.

Son iyirmi il ərzində təmsil etdiyi qurum ilə Azərbaycan arasında səmərəli əməkdaşlıq həyata keçirildiyini bildirən Qulam İsakzai BMT-nin Azərbaycan hökuməti ilə mövcud olan tərəfdaşlıq əlaqələrini gücləndirmək niyyətində olduğunu deyib. O, ölkəmizdə gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirib, yoxsulluğun azaldılması, infrastrukturun yenidən qurulması istiqamətində əldə olunan nailiyyətlərin önəmini vurğulayıb.

Prezident İlham Əliyev Qulam İsakzaiyə fəaliyyətində uğurlar arzulayıb.

## 2016-cı ilin birinci rübündə əhalinin sosial müdafiəsinə diqqət artırılıb

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2016-cı ilin birinci rübündə verilən tapşırıqların icrasını diqqət mərkəzində saxlamış, işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı, əməyin təşkili və mühafizəsi, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı və tibbi reabilitasiyası istiqamətində tədbirlər davam etdirilmişdir. İşaxtaran və işsiz vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 536 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 15 nəfər kvota yerlərinə göndərilmiş, 8 nəfər haqqıödənilən ictimai işə, 119 nəfər isə peşə kurslarına cəlb olunmuşdur. İşlə təmin edilənlərdən 31-i məhdud fiziki imkanlı şəxs, 2-si cəzaçəkmə müəssisəsindən azad edilən, 5-i isə hərbi xidmətdən tərxis olunan vətəndaşlardır. Qeyd olunan dövrdə 31 nəfər kəndlərdə yeni istifadəyə verilən xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq peşə kursları təşkil edilmiş, ötən 3 ayda müvafiq peşə kurslarına 119 nəfər cəlb edilmişdir. "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosialyönümlü haqqıödənilən ictimai işə də diqqət artırılmış, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz rayonlarında və Naxçıvan şəhərində, ümumilikdə, 11 xalça toxuyanla əmək müqaviləsi bağlanmış, onlar lazımi avadanlıq, alət və materiallarla təmin edilmişlər. Bu dövrdə qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqqının reallığı əks etdirməsi ilə bağlı 188 obyektdə yoxlama aparılmış, 164 halda yeni əmək münasibətlərinin rəsmiləşdirilməsinə, 430 halda isə əməkhaqqının real göstərilməsinə nail olunmuş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" mövzusunda 2 maarifləndirici kurs təşkil edilmişdir.

Müharibə əlilləri və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması dövlətimizin daim diqqət mərkəzindədir. Bu ilin birinci rübündə sosial qayğıya ehtiyacı olan 1 şəhid ailəsinə və 2 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər təqdim edilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası və təhsilə cəlbi istiqamətində də işlər davam etdirilmiş, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində tərtib olunmuş qrafik əsasında distant dərslər keçirilmiş, sağlamlıq imkanları məhdud 139 uşağın iştirakı ilə məşğələlər təşkil olunmuşdur. Hazırda Distant Tədris Mərkəzində 23 uşaq təhsil alır. Görmə məhdudiyyəti olan şəxslər üçün nəşr olunan "Könül işığı" adlı brayl jurnalının ötən aylar üçün nömrələri hazırlanaraq audiokitabxanaya daxil edilmişdir. Bu dövrdə tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 435 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, o cümlədən 15 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 72 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 71 uşağın müalicəsi təşkil edilmişdir. Həmçinin 26 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 22 nəfər texniki reabilitasiya vasitəsi ilə təmin olunmuş, 31 nəfərin sosial məişət şəraitinin yaxşılaşdırılmasına, 14 nəfərin respublika daxilində müalicəsinə köməklik göstərilmişdir.

Əlamətdar günlərdə sosial qayğıya ehtiyacı olan insanlarla görüşlərin keçirilməsi də ənənə halını almışdır. Novruz bayramı münasibətilə sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə xalq uşaq oyunlarından ibarət əyləncəli yarış təşkil olunmuş, 21 mart "Ümumdünya Daun Sindromlu İnsanlar Günü" münasibətilə daun sindromlu 65 şəxslə görüş keçirilmiş, sovqat təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Hava nəqliyyatında xidmət nümunəvi təşkil olunub

*Naxçıvan Beynəlxalq Hava Limanında aparılan yenidənqurma işləri sərnişinlərin rahatlığına və qeydiyyat-nəzarət sisteminin daha çevik təşkilinə imkan verir.*




Bu da muxtar respublikada hava nəqliyyatından istifadə edənlərin sayının artmasına səbəb olmuşdur. Belə ki, bu ilin birinci rübündə yerli hava xətti ilə 51 min 85 sərnişin, 873 min 135 kiloqram baqaj, 148 min 49 kiloqram yük və 10796,27 kiloqram poçt daşınmışdır. Bu dövrdə beynəlxalq hava xətləri üzrə Naxçıvan-Moskva reysi ilə 425 sərnişin, 8 min 152 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 1421 sərnişin və 17 min 841 kiloqram baqaj daşınmışdır.

Uçuşların vaxtında və təhlükəsiz təşkili məqsədilə hava gəmilərinə, bütün növ xidmət vasitələrinə vaxtlı-vaxtında texniki xidmət göstərilmiş, uçuş-enmə zolağı, dönmə yolları, perron və dayanacaqlar mütəmadi yoxlanılmış, təmir işləri görülmüşdür. Həmçinin aerovağzal ərazisindəki nəzarət qüllələrində, VİP və bir sıra inzibati binalarda təmir, aerovağzal binasında isə yenidənqurma işləri davam etdirilmiş, işıqlandırma sistemləri və elektrik paylayıcı qurğuları daim nəzarətdə saxlanılmışdır. Yanğın təhlükəsizliyi və qəza-xilasetmə komandası isə hava limanı ərazisinin yanğından etibarlı mühafizəsini təmin etmiş, yanğınsöndürən avtomobillərə mütəmadi texniki xidmət göstərilmiş, xidməti ərazilərdə profilaktiki yoxlamalar aparılmış, təlim və taktiki məşğələlər keçirilmişdir.

Aviasiya təhlükəsizliyi xidmətinin nümunəvi təşkili də diqqət mərkəzində saxlanılır, əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə ardıcıl tədbirlər görülür. Bu istiqamətdə işlər ötən dövrdə də davam etdirilmiş, Milli Aviasiya Akademiyasından dəvət olunmuş mütəxəssis tərəfindən "Təhlükəli yüklərin hava nəqliyyatı ilə daşınması" mövzusunda kurs keçirilmişdir. Teleskopik trapı idarə edən 16 nəfərlik heyət isə Milli Aviasiya Akademiyasında keçirilən nəzəri-praktiki kurslarda iştirak etmişdir.

**Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti**

## Yeni yaşıllıqlar salınır



*Muxtar respublikamızda cari ildə də iməciliklər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir, yeni yaşıllıqlar salınır, ağac və gül kolları əkilir.*

Aprelin 9-da keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu. Həmin gün iməciliyə 24 min 92 nəfər çıxmış, ümumilikdə, 15 min 900 ədəd ağac və bəzək kolları əkilmişdir. Bunlardan 4200 ədədi meşə, 6840 ədədi meyvə ağacı, 560 ədədi həmişəyaşıl ağac, 4300 ədədi gül və bəzək kolları olmuşdur.

Həmin gün Naxçıvan şəhərinin sakinləri Sement Zavodunun yaxınlığındakı 0,4 hektarlıq ərazidə 350 ədəd meyvə ağacı, Dövlət Avtomobil Müfəttişliyinin yaxınlığındakı 1 hektarlıq ərazidə 300 ədəd meyvə ağacı və şəhərdəki parklarda, ümumilikdə, 3000 ədəd gül kolu əkmişlər.

Naxçıvan-Sədərək magistral yolunun Zeyvə, Maxta və Dəmirçi kəndləri hissəsində əkilmiş 2500 ədəd meşə ağacı, 500 ədəd gül kolu, Mahmudkənddəki stadionun ətrafında əkilmiş 400 ədəd meyvə ağacı, 60 ədəd həmişəyaşıl ağac və 500 ədəd gül kolu Şərur rayonunun yaşıl örtüyünü daha da zənginləşdirəcək.

İməcilik günü babəklilər Əshabi-Kəhf ziyarətgahına gedən yolun, Naxçıvan-Şahbuz-Batabat və Naxçıvan-Culfa magistral yolunun kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmişdir. Belə ki, Əylis düzündəki 9,5 hektarlıq ərazidə 3750 ədəd meyvə, kəndlərdə 1400 ədəd meyvə və 600 ədəd meşə ağacı əkilmişdir.

Culfalılar Əlincəçaylanın ətəklərində 500 ədəd meşə ağacı və 500 ədəd həmişəyaşıl ağac əkməklə mütəşəkkillik göstərmişlər.

Kəngərli rayonunun sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Şahbuzlular Su Təmizləyici Qurğu Kompleksinin yaxınlığındakı 0,9 hektarlıq ərazidə 640 ədəd meyvə ağacı əkinini həyata keçirmişlər.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun sağ və sol hissələrində bərpa məqsədilə 600 ədəd meşə ağacı, Heydərabad qəsəbəsindəki park və xiyabanlarda 300 ədəd gül kolları əkməklə yaşıllıq sahələrini genişləndirmişlər.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl və vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

## Yeni yaşayış binasında işlər yekunlaşmaq üzrədir

***Muxtar respublikada əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***



Son illərdə Naxçıvan şəhərində də mənzil tikintisinin həcmi xeyli artıb. Yeni yaşayış binalarının tikilməsi və mövcud binaların əsaslı şəkildə yenidən qurulmasında əsas məqsəd sakinlərin rahatlığının təmin olunması, onların yaşayış şəraitinin daha da yaxşılaşdırılmasıdır.

Bu tədbirlərin davamı olaraq hazırda Naxçıvan şəhərinin Əliqulu Qəmküsar küçəsində 8 mərtəbəli yeni yaşayış binasının tikintisi davam etdirilir. Tikinti işlərinə 2015-ci ilin mart ayında başlanılıb. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları binanın bütün mərtəbələrində qəlib-beton, hörgü, suvaq işlərini yekunlaşdırıblar. Hazırda daxildə suvaq işləri davam etdirilir. Binanın dam örtüyü vurulub, kommunikasiya xətləri çəkilib.

Qeyd edək ki, 450 kvadratmetr sahədə ucaldılan yaşayış binasında 32 mənzil istifadəyə veriləcək. Bu mənzillərdən 8-i üçotaqlı, 24-ü isə ikiotaqlıdır.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” muxtar respublikamızın sosial-iqtisadi inkişafında mühüm rolu olan dövlət sənədidir. Bundan əvvəlki dövrlərdə uğurla icra olunmuş regional inkişaf istiqamətli müxtəlif proqramların məntiqi davamı kimi burada da mövcud təbii və istehsal ehtiyatlarından, əmək resurslarından səmərəli istifadə etməklə iqtisadi inkişafı sürətləndirmək və miqyasını genişləndirmək məqsədi qarşıya qoyulmuşdur.*

*Dövlət proqramı necə icra edilir?*

# Naxçıvanın sosial-iqtisadi inkişafı yeni mərhələdə


Naxçıvan Sənaye Kompleksi

Dövlət proqramı çoxşaxəli olub, iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir. Muxtar respublikamızda real sektorun inkişaf etdirilməsi, daha çox yeni iş yerləri yaradılması, sənayedə və aqrar sahədə yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, tikinti-quruculuq və abadlıq işlərinin coğrafiyasının genişləndirilməsi və keyfiyyətinin artırılması, ixracyönümlü hazır məhsul istehsalına diqqətin artırılması, ekoloji tarazlığın qorunması kimi çox sayda istiqamətlər üzrə bu proqramda qarşıya ciddi vəzifələr qoyulmuşdur. Muxtar respublikamızın sosial-iqtisadi və mədəni həyatındakı rolunu və yerinə yetirilməsinə olan ictimai marağı nəzərə alıb adıçəkilən dövlət proqramının icrası vəziyyəti ilə bağlı koordinator qurum olan Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə müraciət etdik.

Nazirlikdən aldığımız məlumatda bildirilir ki, dövlət proqramının qəbulundan ötən dövr ərzində muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində, rayon mərkəzlərində, qəsəbə və kəndlərdə geniş tikinti-quraşdırma, abadlaşdırma işləri aparılmışdır. Bu dövrdə əsas kapitala 1 milyard 875 milyon 825 min manat həcmdə investisiya yönəldilmiş, nəticədə, muxtar respublikada 584 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 43 elm və təhsil müəssisəsi, 66 mədəniyyət müəssisəsi, 28 səhiyyə müəssisəsi, 56 rabitə müəssisəsi, 4 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri və təbii fəlakətdən zərər çəkmiş ailələr üçün 13 fərdi ev və digər bu kimi sosial infrastruktur obyektləri istifadəyə verilmişdir.

Muxtar respublikada müasir texnologiyalara əsaslanan iri sənaye müəssisələri və kompleksləri yaradılır, sənayeləşdirmə prosesi sürətlə davam etdirilir. Dövlət proqramında qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində Naxçıvanda müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilmiş, 110 yeni istehsal və xidmət müəssisələri yaradılmışdır. Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına 43 investisiya layihəsinin maliyyələşdirilməsinə, bütövlükdə, 17 milyon 319 min 200 manat həcmində kreditlər verilmişdir. Bütün bunlar səmərəli məşğulluğun təmin olunmasına öz töhfəsini vermiş, yüksək əməkhaqqı göstəricilərinə malik 6713 yeni iş yeri açılmışdır.

Muxtar respublikada aqrar sektorun inkişafında soyuducu anbarların rolu böyükdür. İstehsal olunan məhsulların satışı zamanı mövsümi problemlərin həlli və əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatı məqsədilə son 2 il ərzində ümumi tutumu 1903 ton olan 5 müxtəlif-tutumlu soyuducu və digər ərzaq məhsullarının saxlanılması üçün anbar istifadəyə verilmişdir. Bundan əlavə, əhalinin mövsümi tərəvəz məhsulları ilə təminatının yaxşılaşdırılması, istixana komplekslərinin genişləndirilməsi məqsədilə 12 istixana təsərrüfatının yaradılmasına 923 min 700 manat, 16 heyvandarlıq təsərrüfatının yaradılmasına 30 milyon 376 min 200 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.


Naxçıvan Günəş Elektrik Stansiyası


Ordubad rayonu Tivi Kənd Mərkəzi


Culfa rayonunda “Naxçıvanterminalkompleks” Birliyinin inzibati binası və anbar kompleksi

Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə ümumi tutumu 30 min ton olan “Bərəkət” toxumçuluq təsərrüfatının yaradılması istiqamətində işlər davam etdirilmişdir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

Aqrar sahədə digər mühüm məsələ məhsul istehsalçılarının müasir texnika və mineral gübrələrlə vaxtında təchiz edilməsidir. Bu məqsədlə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin rayon bazalarının balansına kifayət qədər kənd təsərrüfatı texnikaları verilmişdir. 2014-2015-ci illərdə “Naxçıvan Aqrolizinq” ASC tərəfindən 447 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq gətirilmiş və məhsul istehsalçılarına verilmişdir. Həmçinin məhsul istehsalçıları 9 min 892 ton mineral gübrə ilə təmin olunmuşlar.

Aqrar sahənin inkişafı məqsədilə 2014-2015-ci illər ərzində meliorasiya və suvarma sistemlərinin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilmiş, nasos stansiyaları tikilmiş, su kanalları çəkilmiş, yeni torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir.

Muxtar respublikada ərzaq təhlükəsizliyinin və istehsal olunan məhsulların xarici bazarlara sərbəst çıxışının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında ərzaq məhsullarının keyfiyyətinə nəzarət mühüm yer tutur. Bu məqsədlə “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyası Avropa Birliyi ölkələri tərəfindən beynəlxalq akkreditasiyadan keçirilmiş və cəmiyyət tərəfindən verilmiş keyfiyyət sertifikatları ilə ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaranmışdır.

Muxtar respublikada istehsal olunan məhsulların ixracının artırılması məqsədilə ixrac şirkətlərinin yaradılması və fəaliyyətinin dəstəklənməsi istiqamətində “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilmiş və yerli məhsulların Bakı şəhərində satışı tədbirləri həyata keçirilmişdir. İxracatla məşğul olmaq istəyən naxçıvanlı sahibkarların biznes əlaqələrinin genişləndirilməsi məqsədilə 2014-2015-ci illər ərzində ölkə daxilində və xaricdə keçirilən 48 biznes-forum, sərgi və konfransda 233 sahibkarlıq subyektinin iştirakı təmin edilmişdir. Muxtar respublikada xarici ticarət əməliyyatlarının aparılmasında gömrük infrastrukturunun təkmilləşdirilməsi istiqamətində “Naxçıvanterminalkompleks” Birliyi üçün yeni inzibati bina və anbar kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında böyük uğur qazanmış “Kənd mərkəzləri” layihəsi əhalinin tələbat və ehtiyaclarının ödənilməsinə, ümumi inkişafa böyük təkan verir, vaxt itkisinin qarşısını alır. Artıq muxtar respublikada kənd tipli yaşayış məntəqələrinin üçdəbirində nümunəvi kənd mərkəzləri salınmışdır. Kənd mərkəzləri müasir kəndin inkişafının mühüm amilinə çevrilir və son 2 il ərzində 24 qəsəbə və kənd mərkəzi istifadəyə verilmişdir.

Müasir iqtisadiyyatda rabitə və nəqliyyatın mühüm rolu vardır. Muxtar respublikamızda bu sahələrə göstərilən diqqətin nəticəsidir ki, ötən dövr ərzində 3-cü nəsil kommunikasiya sistemləri quraşdırılaraq əhalinin istifadəsinə verilmiş, 429,4 kilometr uzunluğunda fiber-optik kabel xətləri çəkilmiş, yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 83 faizində isə simsiz internet xidməti yaradılmışdır. Muxtar respublikada istehlakçıların istifadəsinə veriləcək 4-cü nəsil şəbəkə sisteminin yaradılması başa çatdırılmaqdadır. 2014-2015-ci illərdə yaşayış məntəqələrində rəqəmsal televiziya yayımının təmin edilməsi məqsədilə 6 güclü və 43 azgüclü televiziya vericisi quraşdırılmış, 12 televiziya kanalının rəqəmsal formatda yayımı təmin edilmişdir. Bundan əlavə, muxtar respublika ərazisində IP televiziyanın yayımı təşkil edilərək sakinlərə Yeni Nəsil Telekommunikasiya Sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaradılmışdır.

Son 2 ildə əhaliyə göstərilən poçt xidmətinin keyfiyyətinin daha da yüksək səviyyədə təşkil edilməsi üçün “Maliyyə xidmətlərinin inkişafı” layihəsinə uyğun olaraq muxtar respublikada 132 poçt şöbə və bölməsi avtomatlaşdırılmış, 177 ədəd POS-terminal quraşdırılmış, bununla da POS-terminalların sayı 1 yanvar 2016-cı il tarixə 1044-ə çatdırılmışdır.

Ötən 2 il ərzində muxtar respublikada 135,4 kilometr magistral və yerli əhəmiyyətli yollar çəkilmiş, 5 körpü tikilmişdir.

İqtisadi və sosial inkişafın daha bir mühüm amili davamlı enerji təminatıdır. Bu baxımdan elektroenergetika sahəsində də aparılan genişmiqyaslı işlər diqqəti cəlb edir. Belə ki, ötən 2 il ərzində 20,5 meqavat gücündə “Arpaçay-1” və 1,4 meqavat gücündə “Arpaçay-2” Su Elektrik stansiyaları, 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Hazırda Ordubad rayonunda 36 meqavat gücündə su elektrik stansiyasının inşası davam etdirilir. Muxtar respublikanın təbii qazla tam təmin edilməsi istiqamətində görülən işlərin nəticəsi olaraq 1 yanvar 2016-cı il tarixə 83 min 633 əhali abonenti təbii qazla təmin olunmuşdur.

Muxtar respublikada həyata keçirilən ekoloji siyasət istiqamətində 2014-2015-ci illər ərzində keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində 1078 hektar sahədə meşəsalma və meşəbərpa işləri görülmüş, 887 mindən çox ağac və gül kolu əkilmişdir. Hazırda muxtar respublikadakı yaşıllıqlar ümumi ərazinin 12 faizdən çoxunu təşkil edir.

Əhalinin maddi rifah halının yaxşılaşması fərdi yaşayış evlərinə olan tələbatda özünü göstərir. Belə ki, ötən 2 il ərzində muxtar respublikada əhalinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə 7 yaşayış binasının tikintisi, 11 yaşayış binasının yenidən qurulması və 9 yaşayış binasının əsaslı təmiri başa çatdırılmışdır. Əhalinin şəxsi vəsaiti ilə tikilən mənzillərin sahəsi isə 736,7 min kvadratmetr olmuşdur.

*Qarşıdakı dövrdə Naxçıvan Muxtar Respublikasında geniş inkişaf hədəfləri müəyyənləşdirilmişdir. Bu istiqamətdə 2014-2018-ci illəri əhatə edən sosial-iqtisadi inkişafa dair üçüncü dövlət proqramına əsasən, Naxçıvan Muxtar Respublikasında sənayeləşmənin daha da genişləndirilməsi, üzümçülük plantasiyalarının salınması, gülçülük təsərrüfatlarının yaradılması, baramaçılığın bərpa edilməsi, balıqçılığın daha da inkişaf etdirilməsi, aqrofermaların genişləndirilməsi, yeni istehsal və sosial infrastruktur obyektlərinin tikintisinin davam etdirilməsi nəzərdə tutulmuşdur. Bütün bunlar hərtərəfli inkişaf edən Naxçıvanın müasir tələbidir.*

**Ə.CABBAROV**

# Mahmudkənd stadionu yenidən qurulur

*Regionumuzda idman sahəsində əldə olunmuş nailiyyətlərdən danışanda mütləq muxtar respublikamızda bu sahənin maddi-texniki bazası haqqında fikir söyləmək lazımdır. Bu gün şəhər və rayonlarımızda 50-dən çox idman zalı, olimpiya-idman kompleksləri fəaliyyət göstərir. Bu isə muxtar respublikamızda idmana olan qayğının nəticəsidir.*

Muxtar respublikada gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Muxtar respublikada, ümumilikdə, 40 min nəfərdən çox yeniyetmə və gənc fəal şəkildə idmanla məşğul olur. Onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir, qazanılan qələbələrin sayı artır.

Bugünkü nəticələr həm kəmiyyət, keyfiyyət, həm də idman növlərinin coğrafiyası baxımından əvvəlkilərdən köklü surətdə fərqlənir.

Muxtar respublikada yeniləşən idman obyektləri gənc nəslin bu sahəyə olan marağını gündən-günə artırmaqdadır. Yenidən qurulmasına başlanılan belə idman obyektlərindən biri də Şərur rayonundakı Mahmudkənd stadionudur. Bir müddət əvvəl yararsız vəziyyətdə olan kənd stadionu artıq müasir standartlara cavab verə biləcək şəkildə təmir olunur. Stadionun 3 tərəfi hasarlanıb, bir tərəfində isə idmançıların rahatlığı üçün 2 soyunub-geyinmə və hakim otaqları tikilir. Bununla yanaşı, azarkeşlərin oyunları rahat izləmələri üçün 170 nəfərlik tribuna hazırlanır. Tribuna müasir stadion oturacaqları ilə təmin olunacaq. Stadion ərazisində məşq etmək üçün qurğular quraşdırılacaq. Ot örtüyünə gəlincə, uzunluğu 110, eni isə 65 metr olan meydançaya xüsusi ot toxumu səpilib ki, hazırda dünya arenalarında bu vasitədən istifadə edilir. Stadionun ot örtüyünün suvarılması məqsədilə daimi su sistemi də quraşdırılıb.

Stadionun ərazisində yaşıllıq zolağı salınıb. Belə ki, şənbə günü Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, həmçinin nazirliyin Şərur rayonunda fəaliyyət göstərən qurumlarının əməkdaşlarının iştirakı ilə 400 ağac tingi, 600 bəzək kolu və 60 ədəd həmişəyaşıl ting əkilib.

Mahmudkənd sakini Elçin Məmmədov yenidən qurulan stadion barədə danışarkən bildirdi ki, bir müddət öncə stadion bərbad vəziyyətdə idi, uşaqlar futbol oynamaq üçün yer tapa bilmirdilər. İndi stadion yenidən təmir olunur, yararsız halda olan tikililər sökülür, yerində isə müasir obyektlər tikilir. Bu, muxtar respublikada idmanın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunun ifadəsidir.

Bu gün Naxçıvanda müasir səviyyəli idman infrastrukturu yaradılıb. Bu da idmançıların, gənclərin ruh yüksəkliyini artırır. Əsas məqsəd odur ki, insanlarımız sağlam olsun, sağlam gənc nəsil yetişsin.

**Ceyhun MƏMMƏDOV**

# *Turizm* mövsümü uğurlu başladı



***Turizm haqqında danışarkən onun cazibədarlığı və faydalarından bəhs edir, turizmin daha da inkişaf etdirilməsi üçün yollar axtarırıq. Muxtar respublikamızda da turizm fəaliyyətinin genişləndirilməsində məqsəd burada mümkün ola bilən turizm növlərinin inkişaf etdirilməsi ilə bu qədim Azərbaycan torpağının bütün gözəlliklərinin dünyaya tanıdılması və turizmin iqtisadi inkişafdakı rolundan bəhrələnməkdir. Builki turizm mövsümünün başlanğıcı ərəfəsində muxtar respublikamızda turizmin inkişaf etdirilməsi üzrə verilmiş ciddi tapşırıqlara əməl olunması və artıq mart ayının ortalarından etibarən muxtar respublikamıza axışıb gələn əcnəbi turistlərin sayındakı artım turizm mövsümünün yaxşı başladığını, qarşıdakı dövrdə bizi çox işlər gözlədiyini göstərir.***

Təqribən, ötən bir ay turizm baxımından nə ilə yadda qaldı? Söz yox ki, hər zaman olduğu kimi, bu dəfə də muxtar respublikamıza səyahət edən turistlərin yaddaşında möhtəşəm tarixi abidələr və müasir tikililərlə süslənmiş gözəl şəhər, isti qonaqpərvərlik, diqqətli münasibətin təəssüratları qaldı. Naxçıvan şəhərində sıx rastlaşdığımız turistlərin üz ifadələrindən və turizm üzrə səlahiyyətli orqanların nümayəndələri ilə aparılan söhbətlərdən bu qənaətə gəldik. Həqiqətən, muxtar respublikamızı turistlərə daha yaxşı sevdirmək, bir gələn turisti bir daha buraya çəkə bilmək üçün çox iş görülüb. Mart ayında bir neçə gün davam edən açıq hava konsertləri, rəsm sərgiləri, milli yeməklərin hazırlanması, gəzinti, alış-veriş və əyləncə tədbirləri həm naxçıvanlılar, həm də turistlər üçün maraqlı oldu. Necə deyərlər, mövsüm başladısa, boş dayanmağa bir saat belə, vaxt yoxdur.

Turizm xidmətlərinin zərf halında cəmləşdiyi mühüm xidmət müəssisəsi mehmanxanalardır. Məhz mehmanxanalarda turistlərin gecələməsindən başqa, onlara lazım olan müxtəlif məişət, əyləncə və sağlamlıq, rabitə və işgüzar xidmətlər təklif edilir, buradan gələn turistlərin sayı, səfər məqsədləri haqda məlumat almaq olur. Lakin turizmdən gözlənilən bütün nəticələrin yükünü mehmanxanaların üzərinə yönəltmək düzgün olmazdı. Belə ki, mehmanxana xidmətləri turistlər üçün vacib olsa da, asudə vaxtın keçirilməsi üçün o, kifayət deyil. Başqa sözlə, turistlər yalnız mehmanxanalarda gecələmək üçün səyahət etmirlər. Deməli, uğurlu turizm təsərrüfatı mehmanxana, nəqliyyat, restoran və məzmunlu tur-ekskursiya xidmətlərinin bir-birini tamamladığı mürəkkəb bir canlı orqanizm kimi işləməlidir. Bu mütəşəkkillik peşəkar qonaqpərvərlik kimi turistlərə təqdim edilib yerli əhalinin milli qonaqpərvərliyi ilə müşayiət olunduqda, turizm istənilən bazar şəraitində öz işinə davam edən bir sənaye halına gələcəkdir.

Bu fikirlərlə şəhərimizin mərkəzindəki 5 ulduzlu "Təbriz" mehmanxanasına yaxınlaşdıqda burada bir qaynarlıq gördük. Gülərüz münasibətlə qarşılandığımız bu mehmanxana müəssisəsi şəhərimizin ən qələbəlik yerində hər gün çox sayda turisti qəbul edir. Şübhəsiz, çox sayda turistin qaldığı belə bir mehmanxanadan alacağımız turizm yenilikləri müəyyən qənaətə gəlməkdə faydalı olacaqdı.

"Təbriz" mehmanxanasının birdəfəlik tutumu 170 yataq yerindən artıqdır. Mehmanxananın əməkdaşı Ramal Salmanovla söhbətimizdə o, ötən illə müqayisədə, təqribən, iki dəfə artıq turistin müraciət etdiyini bildirdi. Həmsöhbətimin ən sevindirici xəbəri isə müştərilərin arasında keçən illər səyahət edənlərin təkrarən gəldiyini vurğulaması oldu. O həm də otelin Avropadan olan müştərilərinin, əsasən, onlayn rezervasiya sistemi ilə əvvəlcədən yer sifariş etdiklərini bildirdi, bu işə ciddi diqqət yetirdiklərini dedi. "May ayının 19-dan 30-dək Polşa və Almaniyadan 60-a yaxın rezervasiyamız var. Yeri gəlmişkən, qeyd edim ki, ***www.booking.com*** onlayn rezervasiya sistemində "Təbriz" mehmanxanasının turistlər tərəfindən 8.2, yəni "çox yaxşı" qiymətləndirilməsi də fərəh doğurur. Turistlər artıq daha tələbkardırlar. İndi onlara hava limanı və gömrük məntəqələrindən transfer xidmətləri, tam pansion və ekskursiya xidmətləri təklif olunur. Düzdür, dil bilən ekskursiya bələdçiləri sarıdan yerli kadrlar azlıq təşkil etsə də, gələn turistlərə təklif olunan marşrutları, buradakı zərf xidmətlərini onlar maraqla qarşılayırlar. Turistlər Əshabi-Kəhf ziyarətgahına, Naxçıvanqalaya, Duzdağ şaxtalarına, Möminə xatın məqbərəsinə və digər görməli yerlərə böyük maraq göstərirlər".

Həmsöhbətim turistlərin istifadə etdikləri taksi xidmətlərinə də nəzər yetirdiklərini, yalnız turistlərin tələbatlarına uyğun xidmət göstərə bilən nümunəvi taksi sürücüləri ilə əməkdaşlıq etdiklərini bildirdi. Çünki turizm birgə fəaliyyətin məhsulu olduğu üçün turistlərin təəssüratlarına zərər gətirə biləcək hər hansı kiçik bir hadisə belə, yolverilməzdir.

*Göründüyü kimi, bu il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmlə bağlı keçirilən müşavirədə verilmiş tapşırıqlar, görülən işlər öz bəhrəsini verməkdədir. Artıq görürük ki, turizm, həqiqətən, ümumi inkişafın nəticəsi, həm də onun bir amilidir. Bir çox yazılarımızda istifadə etdiyimiz bu tezisi bugünkü yazıda bir daha xatırlatmaq yerinə düşərdi. Bu fikri mənimsəmək, ondan düzgün nəticə çıxarmaq hələ də turizmi təsadüfi bir proses, turistləri də qəfil gəlmiş bir qonaq kimi təsəvvür edənlərin birnömrəli vəzifəsi olmalı, hamı bu işə kömək göstərməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yuxarıda adıçəkilən müşavirədə dediyi kimi:* ***"Hər bir ölkənin özünəməxsus təbii gözəllikləri, tarixi-mədəni abidələri var. Ancaq turizm o yerdə və o zaman inkişaf edir ki, bunlardan səmərəli istifadə olunsun, güclü təşviqat mexanizmi qurulsun".***

**Əli CABBAROV**

***Ağbulaq İstirahət Mərkəzi son illərdə muxtar respublikamıza gələn qonaqların, eləcə də məktəblilərin ən çox üz tutduğu ünvanlardandır. Şahbuz rayonunun səfalı guşələrindən birində fəaliyyət göstərən bu mərkəz Naxçıvan şəhərindən 50 kilometr aralı məsafədə yerləşir. Ağbulaq kəndi təmiz havası, suyu, təbii gözəlliyi ilə bura yolu düşən hər kəsi heyran qoyur. Rayon ərazisində aparılmış geniş infrastruktur tədbirləri yerli əhalinin rahat yaşayışı ilə bərabər, buraya gələn turistlərin də mənalı istirahətinə şərait yaradır. Ağbulaq İstirahət Mərkəzi eyni zamanda muxtar respublikada kənd turizminin inkişaf etdirilməsi sahəsində görülən işlərin ilk və gözəl nümunəsidir.***

# Ağbulaq İstirahət Mərkəzinin budəfəki qonaqları *Şərur məktəbliləri* olub







Qeyd edək ki, martın 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən hər həftənin şənbə və bazar günləri olmaqla, muxtar respublika məktəblilərinin mərkəzə səyahətləri təşkil olunur. Aprel ayının 2-dən icrasına başlanılmış bu layihədə muxtar respublikamızın ümumtəhsil məktəblərinin sınaq imtahanlarında yüksək nəticələr göstərən şagirdləri və aztəminatlı ailələrin uşaqları iştirak edirlər. Naxçıvan şəhər məktəblilərindən sonra ötən şənbə günü – aprelin 9-da Şərur rayon ümumtəhsil məktəblərinin şagirdləri bu imkandan yararlandılar.

Naxçıvan şəhərindən səhərçağı avtobuslarla yola düşən Şərur məktəblilərini Ağbulaq İstirahət Mərkəzində mərkəzin əməkdaşları qarşıladı. Məktəblilər əşyalarını yerləşdirdikdən sonra bu turizm mərkəzi ilə tanış oldular. Mərkəzin icraçı direktoru Novruz Novruzov şagirdlərə ətraflı məlumat verərək bildirdi ki, Ağbulaq İstirahət Mərkəzi Naxçıvanda kənd turizminin inkişaf etdirildiyi ən gözəl məkanlardan biridir. Mərkəzin tikintisinə 2011-ci ildə başlanılıb. 2013-cü ildə istifadəyə verilən, 3,5 hektar ərazisi olan mərkəz 3 yaşayış korpusundan və 1 yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur.

Mərkəzlə tanışlıqdan sonra şagirdlər nahar yeməyinə yollandılar. Naharda məktəblilərə milli mətbəximizin ləziz yeməkləri təqdim olundu. Nahardan sonra şagirdlər proqrama əsasən müxtəlif idman yarışlarında iştirak etdilər. "Qarabağ", "Şərur", "Kəngərli", "Neftçi" komandalarının iştirak etdiyi futbol turnirində "Kəngərli" komandası üstün oyun nümayiş etdirərək qalib oldu. Daha sonra rəssam Bəhruz Quliyev şagirdlər üçün ustad dərsi keçdi. Rəssam Ağbulağın füsunkar mənzərələrini kətan üzərinə köçürərək etüd janrında çəkdiyi rəsm əsəri haqqında məktəblilərə ətraflı məlumat verdi. Məktəblilər üçün təşkil olunmuş şahmat və dama turniri də çox maraqla qarşılandı. Şeir müsabiqəsində isə məktəblilər müxtəlif mövzularda şeirlər səsləndirdilər. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin 9-cu sinif şagirdi İbrahim Qasımovun ingilis dilində söylədiyi şeir alqışlarla qarşılandı. Axşama doğru isə şagirdlər üçün vətənpərvərlik və Naxçıvanın turizm potensialı mövzularında təşkil olunan diskussiyalar maraqlı keçdi. "Xəmsə" intellektual oyununda isə hər biri 5 nəfərdən ibarət olan 4 komandaya müxtəlif mövzularda suallar ünvanlandı. 5 raunddan ibarət yarışın sonunda "Xəzər" komandası günün qalibi adını qazandı. Şam yeməyindən sonra şagirdlər "Nuh yurdu Naxçıvan" adlı sənədli filmə baxdılar. Beləliklə, məktəblilərin istirahət mərkəzində ilk günü başa çatdı və hər kəs onlar üçün ayrılmış otaqlara yollandı.



Növbəti gün səhər saatlarında şagirdlər idman meydançasına toplaşandan sonra Azərbaycan Respublikasının Dövlət Himni oxundu, onlar səhər gimnastikası ilə məşğul oldular. Sonra məktəblilər səhər yeməyinə dəvət edildi. Səhər yeməyindən sonra proqramda nəzərdə tutulduğu kimi şagirdlər üçün əyləncəli oyun və viktorinalar təşkil olundu. Qaçış üzrə öz qüvvələrini nümayiş etdirən yeniyetmələr daha sonra "Xəmsə" intellektual oyununun ikinci mərhələsini oynadılar. Rəqiblərindən daha çox düzgün cavab səsləndirən "Alqış" komandası yarışın qalibi oldu. Daha sonra isə şagirdlər vətənpərvərlik mövzusunda mahnılar səsləndirdilər. Nahar yeməyindən sonra məktəblilərin Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vuruldu və şagirdlər onlar üçün ayrılmış avtobuslarla Naxçıvan şəhərinə yola düşdülər.

Şərurlu məktəblilərin ikigünlük istirahəti həm müəllimlər, həm də şagirdlər tərəfindən sevinc və minnətdarlıq hissi ilə qarşılandı. Şərur Rayon Təhsil Şöbəsinin əməkdaşı Gündüz Əsgərov bizimlə söhbətində bildirdi ki, məktəblilərin bu mərkəzə səfəri muxtar respublikamızın təbii gözəlliklərini tanıması, onların dünyagörüşünün formalaşması, eyni zamanda asudə vaxtlarının səmərəli təşkili baxımından böyük əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında həyata keçirilən bu layihə şagirdlərlə yanaşı, bizi də çox sevindirir. Bu layihə bir daha onu göstərdi ki, muxtar respublikamızda təhsilə böyük dövlət qayğısı var. Buna görə də bu şəraiti yaradanlara rayonumuzun pedaqoji kollektivləri adından minnətdarlığımızı bildiririk. İnanırıq ki, şagirdlərimizin də buradakı istirahətləri ilə bağlı geniş təəssüratları var.

Şərur rayon Dərvişlər kənd tam orta məktəbinin şagirdi Mircəfər Seyidov: "Ağbulağa gələcəyimi eşidəndə çox sevindim. Bura gələndən sonra gördüm ki, həqiqətən də, bu istirahət mərkəzi çox gözəldir. Hər yer təmiz, səliqəli, havasına da söz ola bilməz. İstirahət üçün çox gözəl şərait yaradılıb. İki gün ərzində vaxtın necə gəlib keçdiyini hiss etmədim. Müxtəlif idman yarışlarının, intellektual oyunların keçirilməsi hər birimizin ürəyincə oldu. Təəssüratlarım çoxdur, bunu bircə kəlmə ilə belə ifadə edərəm: "İmkan olsa, yenə bura gələrəm".

Rayonun Ərəbyengicə kənd tam orta məktəbinin şagirdi Nəsibə Məcnunlu isə bildirdi ki, burada olduqları müddətdə yaxşı istirahət ediblər. Proqram üzrə təşkil olunan tədbirlərin keçirilməsi, istirahət mərkəzində yaradılmış hərtərəfli şərait onların asudə vaxtlarının təşkilində mühüm rol oynayıb. Müsahibimiz dedi ki, digər məktəblilərin də bura gəlməsini istəyir. Qoy hər kəs görsün ki, muxtar respublikamızın necə gözəl, səfalı yerləri var.

Şərur şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Hüseyn Mehdibəyli öz təəssüratlarını belə bölüşdü: "Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir ki, gəlirəm. Haqqında eşitsəm də, bu mərkəzin belə gözəl, səfalı yerdə yerləşdiyini təsəvvür etmirdim. Təbiəti, havası çox gözəldir. Burada olduğumuz müddətdə heç darıxmadıq. Bu tədbiri təşkil edənlərə minnətdarlığımızı bildiririk".

İstirahət mərkəzinə səyahətdə məktəblilərlə birgə iştirak edən Şərur rayon Kürkənd tam orta məktəbinin müəllimi Səbuhi Quliyev və Çomaxtur kənd tam orta məktəbinin müəllimi Südabə Nəcəfova da burada yaradılmış şəraitdən razılıqlarını bildirdilər, məktəblilərin istirahətinin təşkilinə görə dövlətimizə minnətdarlıq etdilər. Qeyd etdilər ki, burada keçirilən müxtəlif tədbirlər bundan sonra da uşaqların qabiliyyət və yaradıcılıq potensiallarının inkişafına müsbət təsir göstərəcək, onları daha yaxşı oxumağa həvəsləndirəcək.

Qeyd edək ki, bu tədbir Naxçıvan Muxtar Respublikası Təhsil, Gənclər və İdman nazirlikləri, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası, YAP Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib. Aprel ayının 2-dən start verilən layihə çərçivəsində, ümumilikdə, 405 şagirdin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil ediləcək. Layihə hər həftənin şənbə və bazar günləri olmaqla, iyun ayının 5-dək davam edəcək.

**Səbuhi HƏSƏNOV**

*Xəbər verdiyimiz kimi, ötən həftə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil, peşə və orta ixtisas məktəblərində təhsil alan şagird, tələbə və müdavimlər arasında keçirilən "Kitab bilik mənbəyidir" adlı müsabiqəyə yekun vurulub. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi, Yazıçılar Birliyi və "Şərq qapısı" qəzeti redaksiyasının birgə təşkil etdiyi müsabiqədə daha çox bədii ədəbiyyat oxumuş, hazırcavab, geniş dünyagörüşə malik olan istedadlı gənclər iştirak ediblər. Müsabiqə ümumtəhsil məktəblərinin I-IV, V-VIII, IX-XI sinif şagirdləri, digər təhsil müəssisələrinin isə müdavim və tələbələri arasında 6-10, 10-15 və 15 yaşdan yuxarı qruplar üzrə fərdi qaydada keçirilib. Birinci mərhələdə qalib çıxan ümumtəhsil məktəbi hər yaş qrupu üzrə 2 nəfər olmaqla, 6 şagird ilə, digər təhsil müəssisələri isə 3 nəfər ilə təmsil olunublar. Məlumat üçün bildirək ki, sorğu anketinə daxil edilmiş hər sual 5 balla qiymətləndirilib. Sualların cavablandırılmasına 60 dəqiqə vaxt verilib. Müsabiqə iştirakçısı oxumuş olduğu daha çox kitab üçün sualları düzgün cavablandırmaqla yüksək bal qazanıb. Aprelin 8-də Təhsil Nazirliyində qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Qeyd edək ki, 27 nəfər müsabiqənin qalibi olub. Müsabiqədə yer tutan yeniyetmə və gəncləri oxucularımızla yaxından tanış etmək üçün onları redaksiyamıza dəvət etdik. Birinci yerin qalibi olan məktəbliləri sizə təqdim edirik.*

# "Kitab bilik mənbəyidir" adlı müsabiqənin qalibləri



***Gülnar SƏLİMLİ:*** – 2000-ci ildə Sədərək rayonunun Sədərək kəndində anadan olmuşam. Hazırda Sədərək kənd 1 nömrəli tam orta məktəbin IX sinfinin şagirdiyəm. Məktəbimizin böyük kitabxanası var. İstədiyim bədii ədəbiyyatı, jurnalı əldə edə bilirəm. Cəmiyyətin inkişafında, insanın formalaşmasında, dünyagörüşünün artmasında, doğma yurduna, mənsub olduğu xalqa, onun tarixi keçmişinə məhəbbət ruhunda tərbiyə olunmasında əsas rol oynayan amillərdən biri də kitab və mütaliədir. Kitab insanın ən yaxın dostu, sirdaşı, yolgöstərənidir. Bunun üçün bacardığım qədər kitab oxumağa üstünlük verirəm. Kitab oxuyanda mənəvi zövq alıram. Sonuncu olaraq M.S.Ordubadinin "Qılınc və qələm" romanını oxumuşam. Əsər Azərbaycanın dövlətçilik tarixinin ən böyük səhifələrindən birini – Atabəylər dövrünü əks etdirir. Romanda ən çox diqqətimi çəkən dahi şairimiz Nizami Gəncəvinin yaşadığı dövrün təsvir edilməsidir. Əsərdə XII əsrdə Azərbaycanın yadelli işğalçılara qarşı mübarizəsini, xalq azadlıq hərəkatını böyük həvəslə oxudum. Onu deyim ki, dünya ədəbiyyatına da marağım çoxdur. Onlar sırasında Dostoyevskinin "Cinayət və cəza", "Alçaldılmış və təhqir edilmiş insanlar", Viktor Hüqonun "Səfillər", "Paris Notrdam kilsəsi", Daniel Defonun "Robinzon Kruzo", Aleksandr Dümanın "Üç muşketyor", Rafaello Covanyolinin "Spartak", Robert Stivensonun "Dəfinələr adası", Conatan Sviftin "Qulliverin səyahəti" və başqalarının adını çəkə bilərəm.

Bu müsabiqənin təşkili mütaliəyə marağımı daha da artırıb. Bunun üçün kitabxanalarda yüksək şərait var. Qalır ki, bu şəraitdən istifadə edəsən. Mütaliə insanın daxili aləmini zənginləşdirir, söz ehtiyatını artırır. Belə tədbirlərin təşkilinin bundan sonra da davam etdirilməsini istərdim.



***İnci OCAQVERDİYEVA:*** – 2006-cı ildə Babək rayonunun Didivar kəndində anadan olmuşam. 2012-ci ildə Didivar kənd tam orta məktəbinin I sinfinə qəbul olmuşam. Hazırda həmin məktəbin IV sinfində oxuyuram. Mütaliəni çox sevirəm. Oxuduğum kitablardan "Koroğlu", "Qaçaq Nəbi" dastanları, "Sirlər xəzinəsi", "Göyçək Fatma" və başqalarının adlarını deyə bilərəm. Mircəlal Paşayevin "Bir gəncin manifesti" romanından "İtə ataram, yada satmaram" fəslini oxuyub sinif yoldaşlarıma da danışdım. "İtə ataram, yada satmaram" ifadəsinin niyə işlənildiyini izah elədim. Dedim ki, Sona ana toxuduğu xalçanı bazarda satmağa gedir. Lakin onun qiymətli xalçasını əcnəbilər su qiymətinə almaq istəyirlər. Ana sonda qərara gəlir ki, satmasın və "İtə ataram, amma yada satmaram!" deyərək xalçasını götürüb evinə qayıdır. Oxuduğum kitabların sayını artırmağa çalışıram. Kitablardan çox şey öyrənirəm. Yay tətilində daha çox kitab oxuyacağam.



***Emil QAYBALIYEV:*** – 2002-ci ildə Şahbuz şəhərində anadan olmuşam. Hazırda Şahbuz şəhər 2 nömrəli tam orta məktəbin VIII sinfində təhsil alıram. Dərslərimi əla qiymətlərlə oxuyuram. Sınaq-test imtahanlarında, müsabiqələrdə, idman tədbirlərində uğurlu nəticələr əldə etmişəm. Bu nəticələri qazanmağımda mütaliənin əvəzsiz rolu var. Mütaliə dünyagörüşümün formalaşmasında mənə çox böyük köməklik edir. V sinifdə oxuduğum vaxtdan etibarən bədii ədəbiyyatların mütaliəsi ilə məşğul oluram, məktəb kitabxanasının fəal üzvüyəm. Dəfələrlə keçirilən məktəb və rayon müsabiqələrinin qalibi olmuşam.

Tarix fənninə daha çox marağım olduğuna görə tarixi əsərlərin mütaliəsi ilə daha çox məşğul oluram. Vasili Qriqoryeviç Yanın "Çingiz xan", Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə", "Azərbaycan tarixi", "Azərbaycan Atabəylər dövləti", Fuad Əliyev və Mirabdulla Əliyevin "Naxçıvan xanlığı", Fuad Əliyev və Urfan Həsənovun "İrəvan xanlığı" kimi tarixi əsərlərini oxumuşam. Hər həftə ərzində mütləq bir kitabın mütaliəsini başa çatdırıram. Mütaliəni özümdə vərdişə çevirmişəm. Kitab oxumadan günlərimi keçirmək istəmirəm.

**Sara ƏZİMOVA**

# Dövlət proqramından irəli gələn vəzifələr yerinə yetirilir

***Şərur Rayon Təhsil Şöbəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsinə həsr olunmuş seminar keçirilib. Seminarda ibtidai sinif müəllimləri, məktəb psixoloqları iştirak ediblər.***

Tədbiri Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aparatının rəhbəri Zeynal Hümbətov açıb.

Seminarda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi Kamal Fərəcov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aparatının rəhbəri Zeynal Hümbətov, Naxçıvan Müəllimlər İnstitutunun müəllim-psixoloqu Çapay Quliyev çıxış ediblər. Bildirilib ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nda bu kateqoriyadan olan uşaqların təhsili ilə bağlı ibtidai sinif müəllimləri, məktəb psixoloqları və distant tədris üzrə pedaqoji kadrlar üçün seminarların təşkil edilməsi də yer alıb. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud 825 uşaq oxuyur. Bu, muxtar respublika üçün ümumi sağlamlıq imkanları məhdud uşaqların nisbətinə görə yüksək göstəricidir. Lakin təhsilə cəlb olunmuş müvafiq kateqoriyalı uşaqların məktəblərdə təhsilə marağını artırmaq, onları təhsil mühitinə alışdırmaq ibtidai sinif müəllimlərinin, məktəb psixoloqlarının bacarıq və iş prinsipindən çox asılıdır. Sağlamlıq imkanları məhdud uşaqlara ibtidai sinif müəllimləri, məktəb psixoloqları nəzakətli davranmalı, səbir göstərməli, onları hər an dinləməlidirlər.

Vurğulanıb ki, proqrama uyğun olaraq cari ildə müvafiq komissiya tərəfindən tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı monitorinqlərin aparılması, valideyn, şagird və müəllimlərlə görüşlərin təşkili məqsədilə Şərur rayonunun 19 ümumtəhsil və 3 musiqi məktəbində monitorinqlər keçirilib. Təhsil alan sağlamlıq imkanları məhdud uşaqların hər biri ilə fərdi qaydada söhbətlər aparılıb, onların tədrisdə iştirakı vəziyyəti, peşə maraqlarının aşkar edilməsi, istedadlarının üzə çıxarılması ilə bağlı sorğular təşkil olunub. Müvafiq komissiya tərəfindən sağlamlıq imkanları məhdud şagirdlər barədə məlumatlar ümumtəhsil müəssisələrinə təqdim edilib, həmçinin fərdi proqramların müşahidələr əsasında işlənməsi üçün tövsiyələr verilib, habelə sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant mühitin yaradılması məqsədilə şagird və müəllimlər arasında maarifləndirici söhbətlər aparılıb.

Sonda seminar iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Kitabxanada elmi-nəzəri konfrans

***M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında "Molla Nəsrəddin" jurnalının 110 illiyi münasibətilə "Molla Nəsrəddin – ədalətin carçısı" adlı elmi-nəzəri konfrans keçirilib. Konfransda "Naxçıvan" Universitetinin tələbələri iştirak ediblər.***

Konfransı giriş sözü ilə kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açaraq tədbirin əhəmiyyətindən, "Molla Nəsrəddin" jurnalının fəaliyyəti və şərəfli tarixindən danışıb.

Tədbirdə kitabxananın şöbə müdiri Tamella Əsgərova "Molla Nəsrəddin – 110" mövzusunda məruzə edib. Qeyd olunub ki, "Molla Nəsrəddin" müsəlman Şərqində ilk satirik jurnal kimi fəaliyyətə başlayıb. Jurnalın birinci sayı 1906-cı il aprel ayının 20-də Tiflisdə çapdan çıxıb. Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik düşüncəli insanlarını öz ətrafında toplaya bilən "Molla Nəsrəddin" jurnalının həyat səhnəsinə qədəm qoyması və onun başında Cəlil Məmmədquluzadə kimi açıqfikirli bir ziyalının durması azadlıq dostlarını ürəkdən sevindirib. "Molla Nəsrəddin"in tarixi mübarizəsinin böyüklüyü onda idi ki, onun XX əsr Azərbaycan həyatının eybəcərliklərinə qarşı çevrilmiş bu amansız qəzəb və nifrətinin arxasında vətənə və xalqa böyük məhəbbət dolu bir ürək dayanmışdı. Bu, vətəni və xalqı hər cür ictimai rəzalətlərdən xilas etmək, onu müasir dünyanın qabaqcıl xalqları sırasına çıxarmaq arzusu ilə çırpınan ürək idi. Jurnal İran, Türkiyə, Misir, Hindistan, Mərakeş kimi ölkələrə də yayılaraq oradakı xalqların sosial-mədəni tərəqqisinə müsbət təsir göstərib.

Sonra filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərovun "Molla Nəsrəddin və dünya ədəbiyyatı", pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalovun "Mollanəsrəddinçilərin maarifçilik ideyaları" mövzularında çıxışları olub.

**Səbuhi HÜSEYNOV**

# Güləş turniri keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında sərbəst güləş turniri keçirilib.***

Turnirdə muxtar respublikanın şəhər və rayonlarının, ümumilikdə, 14 komandası və 100-ə yaxın güləşçisi iştirak edib.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edən Daxili İşlər Nazirliyinin idman cəmiyyətinin rəisi, polis polkovniki Cavanşir Salayev bildirib ki, qurum mütəmadi olaraq əməkdaşlar arasında bu cür yarışlar keçirir. Məqsəd isə polis işçilərinin fiziki hazırlığını yoxlamaq və Bakı şəhərində keçiriləcək respublika birinciliyinə gedəcək heyəti müəyyənləşdirməkdir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi və Güləş Federasiyasının birgə təşkil etdiyi turnirin yekun nəticəsinə əsasən, komanda hesabında Naxçıvan Şəhər Polis İdarəsinin komandası qalib adını qazanıb. Digər iki pillədə isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının və Naxçıvan Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin komandaları qərarlaşıb.

Fərdi qaliblərə gəlincə, 7 çəki dərəcəsində Elşən Qasımov (55 kiloqram), Rəşad Həsənov (60 kiloqram), Mahir Babayev (66 kiloqram), Ramin Məmmədov (74 kiloqram), Cavanşir Yaqubov (84 kiloqram), Elməddin Abdullayev (96 kiloqram) və Rəşadət Nuriyev (120 kiloqram) bütün rəqiblərinə qalib gələrək baş mükafatı qazanıblar.

Qaliblərə diplomlar təqdim olunub.

# Güləş Federasiyasının yetirməsi daha bir turnirin qalibi olub

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının fəaliyyətinə yaradılan şərait idmanın bu növü ilə məşğul olanların öz uğurlarını artırmağa, yeni qələbələr qazanmağa imkan verib. Bu günlərdə federasiyanın yetirməsi daha bir uğura imza atıb. Türkiyənin Adana şəhərində keçirilən cüdo üzrə şəhərlərarası turnirdə naxçıvanlı idmançı da qüvvəsini sınayıb. Belə ki, 34 kiloqram çəki dərəcəsində mübarizə aparan Abbas Məmmədov bütün rəqiblərini məğlub edərək turnirin qalibi olub.

Abbas Məmmədov təşkilatçılar tərəfindən medal, diplom və kubokla mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

## 2016-cı ilin aprel ayında rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) | Yarmarkanın keçiriləcəyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Heydərabad Qəsəbə Mərkəzi | 15.04.2016 | $10^{00}$ |
| 2. | Kəngərli rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 19.04.2016 | $10^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz şəhər "Araz" kinoteatrının binası | 20.04.2016 | $10^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 21.04.2016 | $10^{00}$ |
| 5. | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 22.04.2016 | $10^{00}$ |
| 6. | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 26.04.2016 | $10^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 27.04.2016 | $10^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan "Gənclik" Mərkəzi | 28.04.2016 | $10^{00}$ |

***İtmişdir***

Niftəliyev Elnur Nəsrulla oğlunun adına verilmiş AB-022124 seriya nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 277